# Güclü, qüdrətli və nüfuzlu dövlət




***Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizin müasirləşməsini, respublikamızın simasının əsaslı dəyişməsini, dünya birliyinin layiqli üzvünə çevrilməsini təmin edib. Bu gün Azərbaycanın müxtəlif sahələrdə təcrübəsi, hətta inkişaf etmiş ölkələr üçün nümunə göstərilir. Genişmiqyaslı islahatların aparılması, idarəetmənin səmərəliliyinin artırılması və digər mühüm addımlar Azərbaycanın uzunmüddətli inkişafını təmin edir.***

Azərbaycanın güclü, qüdrətli və nüfuzlu dövlət kimi ardıcıl müvəffəqiyyətlər qazanması, sabitlik adası, inkişaf diyarı kimi strateji hədəflərə çatması, beynəlxalq münasibətlər sistemində söz sahibinə çevrilməsini təmin edən əsas amil xalqın öz liderinə dəstək verməsi, liderin isə milli mənafelərə adekvat siyasət həyata keçirməsidir. Milli maraqlara əsaslanan praqmatik və çoxvektorlu xarici siyasətin həyata keçirilməsi, Azərbaycanın qlobal siyasi arenada mövqeyinin möhkəmlənməsi və dünyada etibarlı tərəfdaş, nüfuzlu dövlət kimi tanınması Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində mümkün olub.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyü və suverenliyin tam təmin olunması, üçrəngli bayrağımızın işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanması, Azərbaycanın konstitusiya quruluşunun bərpası böyük mənəvi-siyasi əhəmiyyətə malik hadisə kimi çoxəsrlik dövlətçilik tariximizin zirvə nöqtəsidir. Azərbaycan tarixinin qızıl səhifəsi olan Zəfərimiz xalqımızın həm də şərəf simvoludur. Bu Zəfər bizi qalib xalqa çevirdi, bütün dünyanın gözündə Azərbaycanın nüfuzunu yüksəklərə qaldırdı. Peşəkar, nizami, dövrünün ən müasir silah və texnologiyalarına malik böyük ordusu olsa da, müharibələrdən məğlub ayrılan, torpağı uğrunda fədakarlıqla döyüşsə də, faciələrlə üzləşən xalqlar çox olub. Vətənpərvər, qətiyyətli, müdrik, uzaqgörən, anında rasional qərarlar qəbul etməyi bacaran, böyük sərkərdəlik qabiliyyəti ilə fərqlənən rəhbəri, lideri, komandanı olan xalqlar isə zamanın ağır sınaqlarından uğurla çıxıb. Bu xalqları qələbəyə məhz belə liderlər aparıb. Xalqına, ordusuna arxalanan rəhbər müdrikliyi, qətiyyəti və sərkərdəlik qabiliyyəti ilə böyük zəfərləri təmin edib.

Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuğun aparılması, yeni infrastrukturun yaradılması həm tarixi Qələbəmizin möhkəmləndirilməsi, həm də ölkəmizin sosial-iqtisadi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Beləliklə, xalqımızın çoxillik arzusu gerçəkliyə, dövlətin strateji hədəfi reallığa çevrilir - Böyük Qayıdış prosesi uğurla həyata keçirilir. Çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə öz strateji hədəflərini ardıcıl olaraq reallaşdırır, dövlətimizin qüdrəti günbəgün artır. İlham Əliyev nüfuzlu ölkə başçısı, vətənpərvər lider, Müzəffər Ali Baş Komandan, etibarlı beynəlxalq tərəfdaş olaraq "hakimiyyət xalq üçündür, xalq hakimiyyət üçün deyil" formulunu təsdiq etdi. Təsdiq etdi ki, o, bütün azərbaycanlıların Prezidentidir və onun Prezidenti olduğu ölkə məsuliyyət və xarakter sahibidir.

Bu inkişaf tədricən oldu və davamlı xarakter aldı. Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi çətin zamanlarda zəif və dirçəlməyə çalışan Azərbaycan bu dahi şəxsiyyətin böyüklüyünün kölgəsinə sığınmışdı. Dünya siyasət səhnəsində məhz Heydər Əliyevin müdrikliyi Azərbaycana nüfuz qazandırırdı. Ulu Öndərin siyasi kursunu davam etdirən İlham Əliyev Azərbaycanın geostrateji mövqeyindən maksimum məharətlə istifadə edərək ölkəni nəhəng dövlətlərə xas olan mövqeyə qaldırdı. Cəmi bir neçə il əvvəl müstəqillik qazanan və hazırlıqsız müharibəyə yaxalanaraq bütün resursları məhv olmuş bir dövlət qısa müddətdə ayağa qalxdı və nəinki regional, hətta dünya miqyaslı enerji, nəqliyyat və tranzit layihələrinə imza atdı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Şimal-Cənub nəqliyyat marşrutu, TANAP və TAP kimi layihələri dünya tarixində heç bir ölkə reallaşdıra bilməyib. "Cənub Qaz Dəhlizi artıq üç ildir işləyir. Bu, uğur hekayəsidir. Bu, Avrasiya məkanında mühüm infrastruktur layihələrindən biridir". Bu fikirləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında səsləndirib. Bunun, eyni zamanda enerji təhlükəsizliyi, əməkdaşlıq layihəsi olduğunu vurğulayan dövlət başçısı qeyd edib: "Çünki bu marşrut üzərində yerləşən ölkələr arasında işbirliyi olmadan bu layihəni həyata keçirmək mümkün olmazdı".

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin daxili siyasəti isə xalqa xidmət və rifahın artırılması prinsipinə əsaslanır. Onun rəhbərliyi ilə ölkədə sosial islahatlar, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və infrastrukturun inkişafı sahələrində çoxsaylı layihələr həyata keçirilib. Müasir dünyanın ən bacarıqlı siyasətçilərindən olan İlham Əliyev yalnız öz xalqına söykənərək ölkəni irəli aparmaq xəttindən bir an belə geri çəkilmir. Məhz dövlətimizin başçısının tutduğu düzgün və uzaqgörən mövqe Qarabağ problemində ölkəmizin mövqeyini zəifləməkdən xilas etmişdir. Qazanılan uğurlar, nail olunan inkişaf göstəriciləri bütün sferaları əhatə etməkdədir. Belə ki, müstəqil Azərbaycan elə bir yüksəlişin və tərəqqinin rəmzinə çevrilib ki, bu amil sərhədlərimizdən kənarda da vurğulanır.



Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin əsəri olan müasir müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin müdrik, qətiyyətli siyasəti nəticəsində mükəmməl inkişaf modelinə malikdir və müxtəlif sahələr üzrə yüksəliş dinamikası əslində bir çox dünya ölkələri üçün nümunəyə çevrilib. Zamanla müxtəlif yerli və xarici sosioloji sorğu mərkəzləri, dünyanın bir çox nüfuzlu media qurumları ölkə başçımızın uğurlu daxili və xarici siyasəti barədə geniş materiallarla çıxış edir, Onu qurucu Prezident olaraq qiymətləndirirlər. Bu isə bilavasitə reallığın, gerçəkliyin məntiqi isbatıdır.

Ölkəmizin daxili və xarici siyasətini düşünülmüş konsepsiya əsasında təkmilləşdirən, qonşularla səmimi münasibətlər quran, bölgədə sabitliyi təmin edən, təxminən 200 ölkəni bir araya gətirən COP29 İqlim konfransında Azərbaycan şaxələnmiş xarici siyasətini bir daha nümayiş etdirdi. Ölkəmizdə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilən COP29 Azərbaycanın indiyədək ev sahibliyi etdiyi ən irimiqyaslı tədbir olub. Azərbaycan COP29-a ləyaqətli şəkildə ev sahibliyi etməklə bu mötəbər tədbirlə bağlı göstərilən etimadı layiqincə doğrultdu. İstər qonaqların tədbirin yüksək səviyyədə təşkil olunması barədə fikirləri, istərsə də Bakıda qəbul olunan mühüm qərarlar bunun sübutudur. COP29-un yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurlu sədrliyi dövründə dəstəklənən təşəbbüslərini, qazandığı təcrübəni daha da təkmilləşdirdi. Xarici siyasətimizin konturlarını dəqiqliklə tənzimləyən dövlət başçımız deyib: "Beləliklə, bazarlarını bütün dünyaya açmaqla Ümumdünya Ticarət Təşkilatına üzv ölkələr rəqabəti artıracaq. Lakin eyni zamanda, onlar yerli istehsalçıların maraqlarına ziyan vura bilərlər. Beləliklə, biz bu prosesi balanslaşdırırıq və gələcək danışıqlar prosesində maksimum müsbət şərtləri əldə etməyə çalışırıq. Mən artıq demişəm ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir".

Dünyada siyasi, iqtisadi nüfuzu getdikcə artan Çin-Azərbaycan münasibətlərinin hər iki ölkənin maraqlarına uyğun inkişafını strateji tərəfdaşlıq kimi dəyərləndirən Prezident İlham Əliyev ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş olduğunu güclü qarşılıqlı iradənin nümayişi adlandırmışdır. Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfə verən ölkəmizin müasir beynəlxalq nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşməsini Qlobal Cənubun maraqları baxımından "Bizim ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi" fikirləri ilə dəyərləndirən Prezident İlham Əliyev bu körpülərin istiqamətlərinin şaxələndirilməsi üçün təşəbbüskarlığını daha da artırır. Çinlə strateji tərəfdaş olan Azərbaycan təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, sülhə töhfə verən ölkə olduğunu artıq təsdiqləyib. Ölkəmizi xarici müdaxilələrdən qoruyan qətiyyətli Lider İlham Əliyev ideologiya, iqtisadiyyat və milli ideyalar vəhdətində inkişaf etdirdiyi Azərbaycanı layiq olduğu yerə yüksəldib. Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, görüşləri və bu çərçivədə imzalanan sənədlər mühüm rol oynayıb. Belə ki, enerji, nəqliyyat və investisiya sahələrindəki razılaşmalar Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artırıb.

Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deyir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 6 may (№91).- S.1;2.